**Asgarov H.V.**[♦]

**UDC: 347**

**Representative activities of parents in civil proceedings: legal representation of minors**

**Abstract:** The article examines legal issues related to the representation of parents in civil proceedings: legal representation of minors. Although the civil and civil procedural legislation of the Republic of Azerbaijan does not provide a specific definition of legal representation, it has established a sufficient number of norms regarding legal representatives. These norms are mainly contained in the Civil, Civil Procedural and Family Codes of the Republic of Azerbaijan. Analysis of the relevant norms of the mentioned codes gives grounds to express such a general opinion about legal representation - the representation of people with limited or full legal capacity in courts can be considered as legal representation in civil proceedings. The special legal status of the legal representative of a minor is closely related to the status of a person with a family-legal status as a parent, a person replacing a parent, but it is not the same and has an independent significance in material and procedural legal relations. It is considered appropriate to add special authority to the special legal status of the legal representative of a minor.

The article also shows that the legal representation of minors is a multifaceted legal phenomenon, which can be viewed from different aspects: as an interdisciplinary legal sub-institution and as a system of legal relations. In general, when studying issues related to the legal representation of minors in civil proceedings, it should be noted that this process arises from a direct provision of the law, provided that the factual composition is directly determined. It is based on relations related to an administrative act on the appointment of parenthood, guardianship or trusteeship, or a court decision on the removal.

**Keywords:** civil process; legal representative; parent; adoptive parent; minor; guardianship; family code; limited capacity.

**References**

1. Antokolskaya M.V. Family law. Moscow, Yurait Publ., 2006. 250 p. (in Russian)
2. Asgarov H.V. Some issues of representation in civil proceedings // Proceedings of the IX International Scientific and Practical Conference. Jurisprudence in the current information space. volume 2, – Kiev: – 1 bereznya, – 2019, – p. 17-20. (in Russian)
3. Velichkova O. Problems of legal representation of minors // Moscow, Civilist Publ., - 2007. No. 4, - pp. 79-82. (in Russian)
4. Voevodin L.D. Legal status of the individual in Russia. Moscow, Prospect Publishing House, - 2023 .-- 296 p. (in Russian)
5. Civil procedure: textbook / Ed. M.K. Treushnikov. Moscow, Gorodets Publ., 2003 . 720 p. (in Russian)

[♦] **Asgarov Huseyn Vilayat oglu -** Doctor of Philosophy in Law, Senior Lecturer of the Department of Humanities, Mingachevir State University (Azerbaijan). E-mail: Huseyna28@mail.ru

6. Krashennikov E.A. Civil law and procedure. Selected works. Moscow, Yurait Publ., 2020 . 1125 p. (in Russian)

7. Yuksha Ya.A. Civil law. In 2 parts. Part 2. Study guide. Moscow, RIOR Publ., 2018. 232 p. (in Russian).

8. Busch D. Indirect Representation in European Contract Law: An Evaluation of Articles 3:301-304 of the Principles of European Contract Law. Kluwer Law International, 2005. 403 p.

9. Smits J.M. Contract Law. A Comparative Introduction. Cheltenham: Edward Elgar, 2017. 288 p.

10. www.e-qanun.az

11. www.lawmix.ru/commlaw/1726

**Əsgərov H.V.**♦

**UOT: 347**

## Valideynlərin mülki prosesdə nümayəndəlik fəaliyyəti: yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi

**Xülasə:** Məqalədə, valideynlərın mülkı prosesdə nümayəndəlik fəalıyyəti: yetkınlik yaşına çatmayanların qanunı nümayəndəliyi ilə bağlı hüquqi məsələlər tədqiq edilmişdir.Azərbaycan Respublikasının mülki və mülki prosessual qanunvericiliyi qanuni nümayəndəliyə konkret anlayış verməsə də, qanuni nümayəndələrlə bağlı kifayət qədər normalar təsbit etmişdir. Həmin normalar əsasən Azərbaycan Respublikası mülki, mülki prosessual və ailə məcəllələrində yer almışdır. Adıçəkilən məcəllələrin müvafiq normalarının təhlili qanuni nümayəndəlik haqqında belə bir ümumi fikir söyləməyə əsas verir – məhdud və ya tam fəaliyyət qabiliyyətsiz insanların məhkəmələrdə təmsilçiliyi mülki prosesdə qanuni nümayəndəlik kimi qəbul edilə bilər. Yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi xüsusi hüquqi statusu şəxsin ailəvi-hüquqi statusu olan valideyn, valideyni əvəz edən şəxslər kimi statusları ilə sıx bağlıdır, ancaq, onun eyni deyil və maddi və prosessual hüquqi münasibətlərdə müstəqil əhəmiyyət kəsb edir. Yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi xüsusi hüquqi statusuna xüsusi səlahiyyət əlavə etmək məqsədəuyğun hesab olunur.

Məqalədə həmçinin göstərilir ki, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi çoxplanlı hüquqi hadisədir, hansına ki, müxtəlif aspektlərdən baxmaq olar: sahələrarası hüquqi subinstitut kimi və hüquqi münasibətlər sistemi kimi. Ümumiyyətlə, Mülki prosesdə yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi ilə bağlı məsələləri tədqiq edərkən qeyd etmək lazımdır ki, bu proses bilavasitə müəyyən edilmiş faktiki tərkib şərti ilə qanunun birbaşa göstərişindən yaranır. O, valideynlik, qəyyumluq və ya himayəçiliyin təyin edilməsi ilə bağlı inzibati akta və ya götürülmə üzrə məhkəmə qərarı ilə əlaqəli münasibətlərə əsaslanır.

**Açar sözlər:** mülki proses; qanuni nümayəndə; valideyn; övladlığa götürən; yetkinlik yaşına çatmayan; qəyyumluq; ailə məcəlləsi; məhdud fəaliyyət qabiliyyəti.

♦ **Əsgərov Hüseyn Vilayət oğlu** - Hüquq üzrə fəlsəfə doktoru, Mingəçevir Dövlət Universitetinin Humanitar Fənlər kafedrasının baş müəllimi (Azərbaycan). E-mail: Huseyna28@mail.ru

Nümayəndəlik sahələrarası hüquqi institutdur. Qanuni nümayəndəliyə gəlincə, milli hüququn həm maddi, həm də prosessual sahələrində ona adətən nümayəndəlik institutu çərçivəsində, nümayəndəliyin növlərindən biri kimi baxılır: mülki; mülki prosessual nümayəndəlik və s. Bu halda qanuni nümayəndəlik müxtəlif hüquq sahələri tərəfindən nizama salınmış nümayəndəliyin hüquqi münasibətlərinə yaxınlaşır.

Nümayəndəliyin varlığına dair elmi baxışların inkişafına əhəmiyyətli təsiri sivil doktrina göstərmişdir, hansı ki, mülki-hüquqi nümayəndəliyinin anlamına xüsusi yanaşmanı və baza nəzəri konstruksiyasını formalaşdırmışdır. Bu qayda hüququn başqa sahələrində də tez-tez istifadə edilmişdir. Mülki-hüquqi nümayəndəliyinin hədəfi sazişdir, onun ən əhəmiyyətli xarakteristikalarından biri – bu və ya digər hüquqi hərəkətlərin realizəsi prosesində nümayəndə tərəfindən təmsil edilən şəxsin tam şəkildə əvəzlənməsidir [8, s.2-3].

Təmsil edilən şəxs qismində vətəndaş (doğum anından), həm də hüquqi şəxs (qanuni şəkildə yaranma anından) ola bilər. Hazırkı tədqiqatın məqsədləri üçün biz normativ və ya inzibati akta əsasən yaranan, yetkinlik yaşına çatmayan vətəndaşların təmsil edilməsi barədə məsələləri tədqiq etmişik [2, s.20].

Bu halda, təmsil edilən nümayəndəni müstəqil seçmir və  nümayəndəlik məcburi xarakter daşımaqla təmsil edilənin iradəsindən asılı olmur. İstənilən başqa vətəndaş kimi, qanuna uyğun olaraq yetkinlik yaşına çatmayan şəxs hüquqi münasibətlərin iştirakçısı ola bilər.

Azərbaycan Respublikası (AR) mülki və mülki prosessual qanunvericiliyi qanuni nümayəndəliyə konkret anlayış verməsə də, qanuni nümayəndələrlə bağlı kifayət qədər normalar təsbit etmişdir. Həmin normalar əsasən AR mülki, mülki prosessual və ailə məcəllələrində yer almışdır. Adıçəkilən məcəllələrin müvafiq normalarının təhlili qanuni nümayəndəlik haqqında belə bir ümumi fikir söyləməyə əsas verir – məhdud və ya tam fəaliyyət qabiliyyətsiz insanların məhkəmələrdə təmsilçiliyi mülki prosesdə qanuni nümayəndəlik kimi qəbul edilə bilər.

Qanuni nümayəndəliklə bağlı məsələləri tədqiq edərkən ən çox rast gəlinən anlayışlar arasında qəyyumluq və himayəçilik xüsusilə qeyd edilməlidir. AR qanunvericiliyinə əsasən qəyyumluq valideyn himayəsindən məhrum olmuş 14 yaşadək uşaqlar barəsində mövcud olur. Qəyyum, həmçinin yetkinlik yaşına çatmayan həmin uşağın qanuni nümayəndəsidir. Göstərilən hallarda qanuni nümayəndəlik münasibətlərinin yaranması üçün əsas qəyyumluq və himayə orqanının təyinat haqqında qərarı və ya qanunun birbaşa göstərişidir. Himayəçilik isə 14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayan uşaqlara münasibətdə tətbiq edilir. Öz səlahiyyətlərinin təsdiq üçün qəyyumlar və himayəçilər məhkəməyə qəyyum və ya qəyyumluq şəhadətnaməsini təqdim etməlidirlər.

Hüquq normalarının analizi onu göstərir ki, qanunvericilikdə yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi termini yalnız valideynlər, övladlığa götürənlər, qəyyumlar və himayəçilərin yetkinlik yaşına çatmayanı əvəz edərək öz adından çıxış etdikləri hallarda yox, həm də sadalanan şəxslərin yetkinlik yaşına çatmayana məxsus hüquqların həyata keçirilməsində köməyi göstərdiyi hallarda istifadə olunur. Belə kömək, yetkinlik yaşına çatmayanların öz hüquq və vəzifələrini realizə etdiyi, hüquqi əhəmiyyətli hərəkətlərin təsdiqi, onların həyata keçirilməsinə yazılı razılığın verilməsi zamanı qanuni nümayəndənin bilavasitə iştirakında əks oluna bilər.

Belə ki, İcra haqqında AR Qanununa müvafiq olaraq, 16-18 yaş arasındakı yetkinlik yaşına çatmayan şəxslərin icra sənədləri üzrə icraatda iştirakı mümkündür (md. 30.2) [10]. Bununla belə həmin Qanun müəyyən edir ki, yetkinlik yaşına çatmayanların hüquqi maraqlarını müdafiə etmək valideynlər və onları əvəz edən şəxslərin yalnız hüququ yox, həm də vəzifəsidir.

Ümumiyyətlə, qanuni nümayəndəlik bir çox səbəb və əsaslardan formalaşır. Onlardan biri və yaxud da birincisi qohumluqdur (göstərilən uşağın mənşəyinin təmsil edən şəxsdən bilavasitə asılı olması faktı), bundan başqa, övladlığa götürülmə haqqında məhkəmənin qərarı, uşağın qəbul ailəsində tərbiyəyə verilməsi barədə müqavilə, himayəçi və ya qəyyumun təyinatı haqqında qəyyumluq orqanının aktı, valideyn himayəsindən məhrum olmuş və yetim-uşaqların uşaqlar üçün təşkilata verilməsi haqqında akt da qeyd edilməlidir. Bu vəzifə qanuni nümayəndələrə ona görə həvalə edilir ki, yetkinlik yaşına çatmayan fiziki şəxs özü fiziki və psixi yetkinliyə malik olmadığından, lazım olan maddi və prosessual hüquqlarını realizə edə bilmir.

Görünür ki, valideynlərin və onları əvəz edən şəxslərin vəzifəsinə nəinki ailə, eyni zamanda, mülki, mənzil, torpaq da daxil olmaqla ölkənin əsas qanunu ilə təmin edilən hüquqların (təhsil alma hüququ, tibbi yardım, ictimai təminat, əlverişli ətraf mühit və s) müdafiəsi də daxildir.

Əksər ölkələrin qanunvericiliyinə görə yetkinlik yaşına çatmayan uşaqların hüquq və maraqlarını təmsil etmək hər iki valideyn (hər iki övladlığa götürən) və ya onların arasında razılaşma üzrə  onlardan biri tərəfindən həyata keçirilə bilər. Əgər uşaqların və valideynlərin (övladlığa götürənlər) maraqlarının arasında ziddiyyətlər varsa, hansılar ki, himayəçilik və qəyyumluq orqanları tərəfindən aşkar edilmişdir, onda valideynlər başqa şəxslərlə münasibətlərdə (əlaqələrdə) uşaqların maraqlarını təmsil etmək hüququna malik deyillər.

Bəs uşaqla qanuni nümayəndə arasında ziddiyyətlər hansı səbəblərdən meydana çıxır? Uşaq və valideyn və ya digər qanuni nümayəndə arasında bütün növ münasibətlərin əsasını tərbiyə anlayışı təşkil edir. Bəzi müəlliflər bu anlayışı uşağa sistematik təsir prosesi kimi müəyyən edir, buna görə də müəyyən istiqamətdə onun şəxsi keyfiyyətlərinin inkişafı baş verir.

Tərbiyə, valideynlərin və onların əvəz edən şəxslərin həm hüququ, həm də vəzifəsidir. AR Ailə Məcəlləsinin 49.3-cü maddəsinə əsasən valideyn uşağı tərbiyə etməli, hüquq və maraqlarını qorumalıdır [10]. Bununla birlikdə, uşaqların pis davranışı, hansılar ki, yaşa görə  həmişə öz hərəkətlərinə nəzarət etmək vəziyyətində olmur, lazım olmayan tərbiyə demək deyil, bu daha çox, onların davranışı üçün lazım olmayan nəzarət haqqında fikir yürütməyə əsas verir. Bu yanaşmanı tam şəkildə fəaliyyət qabiliyyəti olmayan şəxslərin qanuni nümayəndəliyinə aid etmək olar.

Belə şəxslər üzərində nəzarəti həyata keçirməmək və ya lazımi qaydada həyata keçirməmək onların qanuni nümayəndələrinin hüquqazidd davranışına yol açır, bu isə həmin şəxslərin mülki hüquqi məsuliyyətinə səbəb olur. Yetkinlik yaşına çatmayanın hərəkətləri  üçün  nəzarətin göstərilən şəxslər tərəfindən həyata keçirilməsi valideynlərin və onları əvəz edən şəxslərin şəxsi qeyri-əmlak hüququ olmaqla tərbiyə prosesinin realizəsi ilə bilavasitə bağlıdır.  Ancaq, əgər tərbiyə üzrə vəzifə göstərilən şəxslərin  ailəvi-hüquqi statusunu əks etdirirsə, onda yetkinlik yaşına çatmamışın hərəkətlərinə nəzarəti həyata keçirmək vəzifəsi onları xüsusi hüquqi statusun daşıyıcıları kimi xarakterizə edir.

Məhz bu səbəbdən, valideyn hüquqlarından məhrum edilmiş valideynlər valideynin ailəvi-hüquqi statusunu saxlayaraq və eyni zamanda qanuni nümayəndənin xüsusi hüquqi statusunu itirərək, mülki-hüquqi sazişlərin onların uşaqları tərəfindən edilməsinə razılığı verə bilmirlər, həmçinin, ümumi qayda üzrə onlar üçün mülki-hüquqi məsuliyyət daşımırlar. Yetkinlik yaşına çatmayan şəxslər üçün nəzarətin həyata keçirilməsi, yalnız həmin şəxslərin xeyrinə yox, həm də cəmiyyətin başqa üzvlərinin xeyrinə müəyyən edilən qanuni nümayəndəliyin

Qanuni nümayəndəliklə bağlı məsələləri tədqiq edərkən, yetkinlik yaşına çatmayan şəxslərin müstəqil iştirak etdiyi nümayəndəlik münasibətləri haqqında bəzi məsələlərə aydınlıq gətirilməsini məqsədəuyğun hesab edirik.

AR mülki qanunvericiliyinə əsasən 14-18 yaş arası yetkinlik yaşına çatmayanlara konkret hüquqlar verilmişdir [10].

İndi isə ümumi yurisdiksiyalı məhkəmələrdə yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyinin ayrı-ayrı məsələləri üzərində dayanaq. Prosessual nümayəndəlik, bir şəxs tərəfindən başqa şəxsin adından və onun xeyrinə prosessual hərəkətlərin icra edilməsini təşkil edir ki, bu da nümayəndəliyin maddi-hüquqi anlamına ziddiyyət təşkil etmir. Əksər dövlətlərin, o cümlədən AR-in mülki və mülki prosessual qanunvericiliyinə əsasən nümayəndəliyin hədəfləri bir-birlərinə uyğundur: onlar təmsil edilənlərin maraqlarının müdafiəsinə yönəlmişdir.

Ancaq, mülki-hüquqi və prosessual nümayəndəliyin bir sıra uyğun əlamətlərinə baxmayaraq, onların arasında fərqlər də var. Məsələn, mülki-hüquqi nümayəndəliyinin hədəfi təmsil edilən üçün mülki hüquq və vəzifələrin yaradılması, dəyişdirilməsi və ləğv edilməsidir [7, s.141]. Məhkəmə nümayəndəliyinin hədəfi isə təmsil edilənin maraqlarının məhkəmədə müdafiəsi, prosessual hüquqların həyata keçirilməsində və prosessual vəzifələrin icrasında ona kömək göstərməkdir.

Mülki prosesdə yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi ilə bağlı məsələləri tədqiq edərkən qeyd etmək lazımdır ki, bu proses bilavasitə müəyyən edilmiş faktiki tərkib şərti ilə qanunun birbaşa göstərişindən yaranır. O, valideynlik, qəyyumluq və ya himayəçiliyin təyin edilməsi ilə bağlı inzibati akta və ya götürülmə üzrə məhkəmə qərarı ilə əlaqəli münasibətlərə əsaslanır.

Valideynlərin və uşaqların maraqlarının arasında ziddiyyət halları istisna olmaqla, valideynlər məhkəmədə uşaqların maraqlarını təmsil edirlər. Qohumluq faktı uşaqlar barəsində qanuni nümayəndəliyin yaranmasının əsası kimi çıxış edir, uşağın mənşəyinin müvafiq şəxsdən yaranması faktı, həmin şəxsin (və ya şəxslərin) öz uşaqlarının qanuni nümayəndələri kimi məhkəmə prosesində çıxışı üçün səlahiyyətlərinin rəsmiləşdirilməsinə imkan verir. Valideynlər məhkəməyə pasportlarını, həmçinin uşağın doğumu haqqında şəhadətnaməsini təqdim edirlər.

Övladlığa götürülmüş uşaqların maraqlarını məhkəmədə qəbul edən valideynləri təmsil edirlər, hansılar ki, bu halda qəyyumluq hüquqlarından istifadə edirlər və müvafiq vəzifələri icra edirlər. Övladlığa götürmə məsələlərində tərbiyə üçün ailəyə uşağın ötürülməsi haqqında müqavilə qanuni nümayəndəlik münasibətlərinin yaranmasının əsasıdır, hansı ki, himayəçilik və qəyyumluq orqanları ilə qəbul edən valideynlərinin arasında bağlanır.

Uşaqların övladlığa götürülməsi barəsində qanuni nümayəndəlik övladlığa götürülmənin təyin edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarına əsasən yaranır. Müvafiq sferada məsələlər xüsusi icraat əsasında AR MPM-in Uşağın övladlığa götürülməsi adlı 39-cu fəsli ilə tənzimlənir.

Qanuni nümayəndələr təmsil edilənin adından və onun maraqları naminə elə prosessual hərəkətləri realizə etmək hüququna malikdirlər ki, həmin hərəkətlər üzrə hüquq təmsil edilənə aiddir, əgər konkret hadisə üçün qanunla məhdudiyyətlər nəzərdə tutulmamışdırsa. Məsələn, fəaliyyət qabiliyyəti olmayan şəxsin qəyyumu qəyyumluq orqanının ilkin razılığı olmadan özgəninkiləşdirmə üzrə sazişlər bağlamaq hüququna və ya qəyyumluq altında olanın əmlakının bağışlanmasına, icarəyə verilməsinə, girov qoyulmasına, əvəzsiz istifadəyə verilməsi hüququna malik deyil. Qəyyum, qəyyumluq altında olana aid olan hüquqlardan imtinanı nəzərdə tutan sazişləri imzalaya bilməz, qəyyumluq altında olanın əmlakının azaldılmasına yönəlmiş əqdləri də bağlaya bilməz.

Qanuni nümayəndənin səlahiyyətlərinin təsdiq edilməsi üçün himayəçilik və qəyyumluq orqanlarının şəhadətnaməsi çıxış edə bilər. Məhkəmə nümayəndəliyi institutu bir sıra əlamətlər üzrə

mülki hüquqi nümayəndəlikdən əhəmiyyətli dərəcədə fərqlənir: xidmət etdiyi hədəflər, nümayəndə və təmsil olunan arasında münasibətlərin xarakteri, subyekt tərkibi, yaranmanın əsasları, hüquqi nəticələr belə əlamətlərə aiddir [9, s.93].

Mülki prosesdə nümayəndənin prosessual vəziyyəti haqqında çoxdan müzakirə aparılır. Bir qrup alimlər hesab edirlər ki, nümayəndələr işdə iştirak edən şəxs deyillər, başqaları onları işdə iştirak edən şəxslərin sırasına daxil edir. Sonuncu nöqteyi-nəzər daha məntiqli görünür. Məhkəmə nümayəndəsi mülki prosessual münasibətlərinin subyektidir, işdə prosessual marağa malikdir, öz hərəkətləriylə prosesin inkişafına təsir göstərir. O, müstəqil prosessual hüquqlara və vəzifələrə malikdir. Öz prosessual vəzifələrinin yerinə yetirilməməsi üçün o prosessual məsuliyyətə cəlb edilə bilər [5, s.83].

Tədqiqat işi çərçivəsində bəzi problemlər xüsusi vurğulanmalıdır. Xüsusilə də, yetkinlik yaşına çatmayanların qanuni nümayəndələrinin fəaliyyət qabiliyyəti məsələsində dayanmaq lazımdır. Övladlığa götürənlər, qəyyumlar, himayəçilər üçün bu statusun alınması şərtlərindən biri elə yetkinlik yaşına çatmaqdır. Ancaq, hüquq ədəbiyyatlarında fərqli fikirlərə də rast gəlinir. O.İ.Veliçkova qeyd edir ki, hüquq qabiliyyəti valideyn statusunun alınması üçün məcburi şərt deyil[3, s.79]. Hətta AR Ailə Məcəlləsində də müvafiq fikrin təsdiqinə rast gəlmək olar. Belə ki, AR Ailə Məcəlləsinin 57.4-cü maddəsində yetkinlik yaşına çatmayan valideynlərin atalığın (analığın) müəyyən edilməsi ilə bağlı hüququ müəyyən edilmişdir [10].

Nikaha daxil olmuş yetkinlik yaşına çatmayan valideynlər adi valideynlərlə bərabər səviyyədə valideyn hüquqları və vəzifələrini tam şəkildə əldə edirlər. Yetkinlik yaşına çatmayanlar nikah bağlamaqla mülki fəaliyyət qabiliyyətini tam şəkildə əldə edirlər və eyni zamanda, mülki və qismən də ailə hüququ nöqteyi-nəzərindən öz uşaqlarının nümayəndəsi olmaq imkanını da əldə edirlər.

Bu problemin həllini bəzi tədqiqatçılar yetkinlik yaşına çatmayan valideyni tam şəkildə fəaliyyət qabiliyyəti ilə təmin etməklə bağlı mülki qanunvericiliyinin dəyişikliyində görürlər [1, s.221].

Bizim fikrimizcə, bu addım çətin ki, yetkinlik yaşına çatmayan valideynlər tərəfindən uşağın qanuni nümayəndəliyinin keyfiyyəti probleminin avtomatik həlli olacaq. Hesab edirik ki, hətta qanunvericiliyə uyğun olan düzəlişlərin qəbulu halında, problemin həllinə fərqli yanaşmaq lazımdır, yalnız yetkinlik yaşına çatmayan tərəfindən uşağın doğulması faktını yox, həm də onun inkişaf səviyyəsini, lazımi biliklərin mövcudluğunu, təcrübə, məsuliyyət hissi nəzərə alınmalıdır. Sadalanan əlamətlər uşağın maraqlarının lazımi müdafiəsi üçün ən zəruri meyarlardır.

Məhkəmədə yetkinlik yaşına çatmayanların qanuni nümayəndələrinin iştirakı öz spesifik xüsusiyyətlərinə malikdir, bu zaman yaranan hüquqi münasibətlər müəyyən elmi müzakirələr tələb edir. Mülki prosesdə məhkəmə nümayəndəsi ümumi qayda üzrə təmsil edilənin adından və təmsil edilən şəxsin xeyrinə çıxış edir. Göstərilən vəziyyətlərdə nümayəndəliyin varlığına mülki-hüquq doktrinasının təsiri açıq-aydın nəzərə çarpır.

Bununla birlikdə, mülki prosessual doktrina o əsasdan çıxış edir ki, mülki prosesdə məhkəmə nümayəndəliyi üçün hüququn bir subyektin digəri ilə əvəzlənməsi xarakter deyil, burada təmsil olunanın hüquq və fəaliyyət qabiliyyətinə qoşulma xasdır. Bu, faktiki olaraq işdə eyni zamanda nümayəndənin və təmsil edilən şəxsin iştirakı imkanını bildirir.

Məsələ ilə bağlı belə bir misal gətirək. 14 yaşından 18 yaşadək yetkinlik yaşına çatmayanların hüquq, azadlıq və qanuni maraqlarını qanuni nümayəndələri qoruyur. Görünür ki, mülki prosessual hüquq münasibətlərinin subyektlərinin qarşılıqlı təsirinin belə modeli öz aralarında nümayəndəliyin yuxarıda göstərilən modelindən fərqlənir, harada ki, nümayəndə, təmsil edilənin adından və onun

xeyrinə hərəkət edərək bu və ya digər hüquq hərəkətlərinin realizəsi vaxtı təmsil edilən şəxsi tamamilə özü əvəz edir [6, s.425].

Hüquqların müdafiəsi və yetkinlik yaşına çatmayanın qanuni maraqları üçün mülki prosesdə qanuni nümayəndənin iştirakı məhkəmə nümayəndəliyinin dar çərçivələriylə məhdudlaşdırılmır.

Mülki prosesdə bu, yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsi adlı xüsusi hüquqi statusun formalaşmasına gətirib çıxarmışdır [4, s.157]. Yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsi prosessual statusu öz spesifik xüsusiyyətlərinə malikdir. Bunlar aşağıdakılardan ibarətdir:

- Qanuni nümayəndəliyin hədəflərindən biri yetkinlik yaşına çatmayanların beynəlxalq hüququn normaları ilə, milli qanunvericiliklə zəmanət verilən hüquq və maraqlarının müdafiəsidir;
- Qanuni nümayəndələr yalnız fəaliyyət qabiliyyətli şəxslər ola bilərlər;
- Yetkinlik yaşına çatmayan şəxslərin qanuni nümayəndələrinin prosessual hüquqlarının həcmi qanunla müəyyən edilir.

14 yaşdan 18 yaşadək yetkinlik yaşına çatmayanlar qanunla nəzərdə tutulmuş hallarda məhkəmələrdə öz hüquqlarını, azadlıqlarını və qanuni maraqlarını şəxsən müdafiə etmək hüququna malikdirlər, bu zaman qanuni nümayəndələrin məcburi iştirakı və ya razılıqları tələb olunmur. Ancaq məhkəmə qanuni nümayəndələri işdə iştiraka cəlb etmək hüququna malikdir.

Nümunə kimi yetkinlik yaşına çatmayanların öz qazancı ilə, təqaüdlə, elmi işlərə müəllif hüquqlarının həyata keçirilməsi, ədəbiyyatın və ya incəsənət əsərləri, ixtiralar və ya öz intellektual fəaliyyətinin nəticəsi və ya başqa gəlirlərlə bağlı sərəncam verməsi ilə bağlı məhkəmələrdə baxılan işləri misal göstərmək olar. Bundan əlavə, valideynləri tərəfindən hüquqlardan sui-istifadə hallarından müdafiə olunmaq üçün yetkinlik yaşına çatmayanlara zəruri hüquq və imkanların verilməsi də xüsusi əhəmiyyət kəsb edən məsələdir.

Bu hallarda belə bir sual meydana çıxır - göstərilən hadisələrdə yetkinlik yaşına çatmayan şəxs məhkəmədə və digər orqanlarda işlərin aparılması ilə bağlı başqa şəxslərə etibarnamə vermək hüququna malikdirmi? Bəzi alimlər güman edirlər ki, bu vəziyyətdə yetkinlik yaşına çatmayan şəxslər öz hüquqlarını və qanuni maraqlarını özünün seçdiyi nümayəndələri vasitəsilə məhkəmədə müdafiə edə bilərlər [11].

Müvafiq olaraq belə bir sual yaranır ki, notarius yetkinlik yaşına çatmayan şəxs adından işin aparılmasına etibarnaməni təsdiqləyə bilərmi? Belə etibarnamənin verilməsi üçün hüquqi əsas yoxdur. Ancaq, əgər notarius etibarnaməni təsdiqləməyi mümkün sayacaqsa, onda qanuni nümayəndələrin bunun üçün razılığı tələb olunmur, notarius iş üzrə iddianın əsası və predmetini aydınlaşdırmalıdır, hansında ki, yetkinlik yaşına çatmayan şəxs iştirak edir, mübahisəli hüquq münasibətlərini nizama salan qanunvericiliyin uyğun olan normalarına müraciət etməlidir, bundan əlavə notarius müəyyən etməlidir ki, yetkinlik yaşına çatmayan şəxsin məhkəmədə işləri aparmaq və ya bununla bağlı etibarnamə vermək səlahiyyəti varmı.

Qalan hallarda 14 yaşdan 18 yaşadək yetkinlik yaşına çatmayan şəxslər məhkəmədə işləri apara bilmirlər. Bunu qanuni nümayəndələr edirlər, yetkinlik yaşına çatmayanlar isə işdə iştiraka cəlb edilə bilərlər. Məsələn, daşınmaz əmlakın satışı haqqında müqavilənin etibarsız sayılması haqqında iddianın verilməsi vaxtı, yetkinlik yaşına çatmayan satıcısının maraqlarını qanuni nümayəndələr təmsil edirlər. Bəzi müəlliflərin qənaətincə, yetkinlik yaşına çatmayan şəxslər tərəfindən belə etibarnamələrin verilməsindən notariuslar imtina etməlidirlər.

Qanuni nümayəndələr tərəfindən yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının müdafiəsi sferasında mövcud olan qadağa və məhdudiyyətlərə də diqqət yetirilməsini vacib hesab

edirik. Subyekt tərkibi və nümayəndənin prosessual hüquqlarının xüsusiyyəti üzrə nümayəndəliyin məhdudiyyətlərinə baxaq.

Subyekt tərkibi üzrə nümayəndəliyin məhdudlaşdırılması. Həm maddi, həm də prosessual hüquqa tətbiq edilən qanuni nümayəndəliyin effektivliyi bir tərəfdən, nümayəndənin üçüncü şəxslərdən asılı olmaması (belə olan halda hüquqi münasibətlərə nümayəndə səlahiyyətlərinin həyata keçirilməsi qismində daxil olur) və digər tərəfdən, təmsil edilənin effektiv şəkildə müdafiə edilməsində nümayəndənin marağı. Üçüncü şəxslərdən nümayəndənin müstəqilliyinə gəlincə, qeyd edək ki, mübahisənin əks tərəfi, başqa şəxslər kimi, nümayəndə tərəfindən müəyyən prosessual hərəkətlərin həyata keçirilməsinin məzmununa, ardıcıllığına təsir göstərə bilməz. Təmsil edilənin hüquqlarının maksimal dərəcədə tam və keyfiyyətli müdafiə edilməsində nümayəndənin marağı o şərtlə mümkündür ki, təmsil edilənin maraqları ilə nümayəndənin maraqları arasında heç bir bağlılıq olmasın.

Qeyd edilənlərdən əlavə, qanuni nümayəndələrə məhkəmə proseslərində müəyyən səlahiyyətlərin icrasına münasibətdə məhdudiyyətlər tətbiq edilir. Məsələn, AR mülki prosessual qanunvericiliyinə görə, xüsusi (və ya sərəncam xarakterli) səlahiyyətlər etibarnamədə ayrıca göstərilməlidir.

Qanuni nümayəndəlikdə qadağaların və məhdudiyyətlərin effektiv realizəsi üçün qəyyumluq və himayəçilik orqanlarının aktiv fəaliyyəti tələb olunur, hansılar ki, bu məqsədlə uyğun olan prosessual hüquq və vəzifələrin (qəyyumluq və himayəçilik orqanları tərəfindən mülki prosesin təşəbbüsü; qanuni nümayəndənin prosessual davranışının qüsurlarının aradan qaldırılması və s.) kompleksiylə təmin edilirlər.

Beləliklə, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi mürəkkəb hüquqi hadisədir, hansının ki, mahiyyəti müxtəlif sahəli nümayəndəliyin hüquqi münasibətlərinə yaxınlaşmır və həmçinin nümayəndəliyin ənənəvi konstruksiyasıyla əhatə edilməyən hüquqi münasibətlərin məcmusu özünə daxil edir, hansılarda ki, qanuni nümayəndə xüsusi hüquqi statusun daşıyıcısı kimi çıxış edir. Xüsusi hüquqi status olan yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi faktiki olaraq müəyyən edilir.

Yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi çoxplanlı hüquqi hadisədir, hansına ki, müxtəlif aspektlərdən baxmaq olar: 1) sahələrarası hüquqi subinstitut kimi; 2) hüquqi münasibətlər sistemi kimi.

Sahələrarası hüquqi subinstitut kimi yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyinin müəyyən edilməsi növbəti məqsədlərə xidmət edir: yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyətindəki boşluğun doldurulması; onların davranışı üçün nəzarət, həmçinin onların hüquq və qanuni maraqlarının müdafiəsi. Bu hüquqi subinstitutun əsasları ailə və mülki qanunvericiliyin normalarından formalaşmışdır. Həmin normalarda yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsinin, konkret olaraq, valideynlərin, övladlığa götürənlərin, qəyyumların, qəbul edən valideynlərin hüquq və vəzifələri nizamlanır.

Hüquqi münasibətlər sistemi kimi yetkinlik yaşına çatmayanların qanuni nümayəndəliyi növbəti məsələləri özündə ehtiva edir: a) nümayəndəlik münasibətinin çoxsahəli xarakteri; b) nümayəndəliyin ənənəvi konstruksiyasıyla əhatə edilməyən başqa hüquqi münasibətlər, hansında ki, valideynlər və onları əvəz edən şəxslər "qanuni nümayəndəlik" adlı xüsusi hüquqi statusun daşıyıcıları kimi öz adından çıxış edirlər.

Yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi xüsusi hüquqi statusu şəxsin ailəvi-hüquqi statusu olan valideyn, valideyni əvəz edən şəxslər kimi statusları ilə sıx bağlıdır, ancaq, onun eyni

deyil və maddi və prosessual hüquqi münasibətlərdə müstəqil əhəmiyyət kəsb edir. Yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi xüsusi hüquqi statusuna xüsusi səlahiyyət əlavə etmək məqsədəuyğun hesab olunur.

Biz, yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi anlayışının növbəti təyinini təklif edirik: yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsi qismində o şəxs tanınır ki, valideynlik və ya ona bərabər ailə-hüquqi statusuna malik olsun və yetkinlik yaşına çatmayan şəxsin hüquq və maraqlarını bütün orqan və müəssisələrdə, fiziki şəxslərlə münasibətlərdə nəinki təmsil etsin, həm də müdafiə etsin.

Nəticədə qeyd etmək istərdik ki, bu yanaşma fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslərə də şamil edilə bilər.

## Biblioqrafiya


1. Антокольская М.В. Семейное право. – М.: Юрайт, –2006. – 250 с.
2. Аскеров Г.В. Некоторые вопросы представительства в гражданском процессе // Матерıали IX мiжнародноï науково-практичноï конференцiï. Юриспруденцiя в сучасному ıнформацiйному просторı. том 2, – Киïв: – 1 березня, – 2019, – с. 17-20.
3. Величкова О. Проблемы законного представительства несовершеннолетних // М.: Цивилист, – 2007. № 4, – с. 79-82.
4. Воеводин Л.Д. Юридический статус личности в России. – М.: Изд. Проспект, – 2023. – 296 с.
5. Гражданский процесс: учебник / Под ред. М.К.Треушникова. – М.: Городец, – 2003. – 720 с.
6. Крашенников Е.А. Гражданское право и процесс. Избранные труды. – М.: Юрайт, – 2020. – 1125 с.
7. Юкша Я.А. Гражданское право. В 2 частях. Часть 2. Учебное пособие. – М.: РИОР, – 2018. – 232 с.
8. Busch D. Indirect Representation in European Contract Law: An Evaluation of Articles 3:301-304 of the Principles of European Contract Law. Kluwer Law International, – 2005. – 403 p.
9. Smits J.M. Contract Law. A Comparative Introductions. – Cheltenham: Edward Elgar, – 2017. – 288 p.
10. www.e-qanun.az
11. www.lawmix.ru/commlaw/1726


**Аскеров Г.В.**♦

**УДК: 347**

## Представительство родителей в гражданском процессе: юридическое представительство несовершеннолетних

♦ **Аскеров Гусейн Вилаят оглы -** доктор философии права, старший преподаватель кафедры гуманитарных наук, Мингечевирский государственный университет (Азербайджан). E-mail: Huseyna28@mail.ru

**Аннотация:** Рассматривается деятельность представительства родителей в гражданском процессе: правовые вопросы, связанные с представительством несовершеннолетних. Хотя гражданское и гражданско-процессуальное законодательство Азербайджанской Республики не дает конкретного определения юридическому представительству, оно установило достаточные нормы, касающиеся законных представителей. Эти нормы в основном включены в гражданский, гражданско-процессуальный и семейный кодексы Азербайджанской Республики. Анализ соответствующих норм упомянутых кодексов дает основание прийти к такому общему мнению о юридическом представительстве - представительство в судах лиц с ограниченной или полной дееспособностью можно рассматривать как юридическое представительство в гражданском процессе. Особый правовой статус законного представителя несовершеннолетнего тесно связан со статусом семейно-правового статуса лица как родителя, лица, заменяющего родителя, но он не тождественен и имеет самостоятельное значение в материальном и процессуальном правовом отношении. отношения. К особому правовому статусу законного представителя несовершеннолетнего считается целесообразным добавить специальные полномочия.

Также в статье показано, что представительство интересов несовершеннолетних представляет собой многогранное правовое явление, которое можно рассматривать с разных сторон: как междисциплинарный правовой субинститут и как систему правоотношений. В целом при изучении вопросов, связанных с юридическим представительством несовершеннолетних в Гражданском процессе, следует отметить, что этот процесс возникает из непосредственной инструкции закона с условием фактического содержания, определяемым непосредственно. В его основе лежат отношения, связанные с административным актом об установлении отцовства, опеки или попечительства либо решением суда об отстранении.

**Ключевые слова:** гражданский процесс; законный представитель; родитель; усыновитель; несовершеннолетний; опека; семейный кодекс; ограниченная дееспособность.